**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Əfqanıstan İslam Respublikasının Əmək, Sosial İşlər, Şəhid və Əlillər Nazirliyi arasında əmək, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Əfqanıstan İslam Respublikasının Əmək, Sosial İşlər, Şəhid və Əlillər Nazirliyi,

iki ölkə xalqlarının sosial rifahının yaxşılaşdırılması istəklərini rəhbər tutaraq,

əmək, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlığın inkişaf etdirilməsini və gücləndirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Anlaşma Memorandumu Tərəflər arasında əmək, sosial müdafiə və məşğulluq sahəsində təcrübə mübadiləsinin çərçivəsini müəyyən edir.

**Maddə 2**

Tərəflər aşağıdakı sahələr üzrə qanunvericilik və ona edilən düzəlişlərlə bağlı təcrübə mübadiləsini həyata keçirərək əməkdaşlıq edirlər:

- əmək fəaliyyəti, əmək qanunvericiliyi, əmək müqavilələri, kollektiv əmək müqavilələri, əmək mübahisələrinin həlli, uşaq əməyinin aradan qaldırılması, işçi və işəgötürən münasibətləri, ictimai təşkilatlar, işçi və işəgötürənlər təşkilatları arasında münasibətlər;
- əməyin mühafizəsi və sağlamlığı;
- əməyin təftişi, yeni təftiş modelləri və qabaqlayıcı təftiş anlayışının yayılması;
- əmək, məşğulluq siyasətləri və əmək bazarının vəziyyətinin monitorinqi, əlilliyi olan şəxslər üçün peşə reabilitasiyası, özəl və dövlət məşğulluq mərkəzlərinin iş metodları, işsiz və işaxtaranların işlə təmin olunması, peşə təlimi və peşəyönümü;
- əmək fəaliyyəti sahəsində əlaqədar beynəlxalq təşkilatlarla əməkdaşlıq;
- milli peşə standartlarının müəyyənləşdirilməsi və peşə bacarıqlarının inkişafı;
- sosial müdafiənin təşkili;

- əmək bazarı üzrə tədqiqatlar;
- Əmək Bazarı İnformasiya Sisteminin yaradılması (ƏBİS).

**Maddə 3**

Tərəflər bu Anlaşma Memorandumunun yerinə yetirilməsinin monitorinqinin aparılması və əməkdaşlıqla bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə birgə işçi qrupunun yaradılması barədə qərar qəbul edirlər.

Birgə işçi qrupu zərurət olduqda qarşılıqlı razılaşdırılmış tarixlərdə toplanır.

**Maddə 4**

Tərəflər hər ilin dekabr ayının sonunadək bu Anlaşma Memorandumunun 2-ci maddəsində qeyd olunan təcrübə mübadiləsi ilə bağlı növbəti ilin fəaliyyət proqramının müəyyənləşdirilməsini asanlaşdırmaq üçün bir birilərini nümayəndə heyətlərini sayı və səfərin proqramı haqqında məlumatlandırırlar.

**Maddə 5**

Təcrübə mübadiləsi çərçivəsində nümayəndə heyətlərinin səfərləri ilə bağlı qalma, yemək və səyahət xərclərini göndərən Tərəf ödəyir.

**Maddə 6**

Bu Anlaşma Memorandumunun tətbiqi və ya təfsiri ilə bağlı yarana biləcək fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

**Maddə 7**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olan və bu Anlaşma Memorandumunun 9-cu maddəsi ilə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 8**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 1 (bir) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 3 (üç) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, bu Anlaşma Memorandumunun avtomatik olaraq növbəti 1(bir) illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumunun ləğvi başlanılmış və davam edən fəaliyyətlərə və layihələrə təsir etmir.

Bu Anlaşma Memorandumu ______________ tarixində,_________ şəhərində, __________ hər biri Azərbaycan, dari və ingilis dillərində olmaqla, 2 (iki) əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri ilə bağlı hər hansı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn əsas götürülür.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri** | **Əfqanıstan İslam Respublikasının əmək, sosial işlər, şəhid və əlillər naziri** |